# Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anara

Əziz Anar müəllim, Sizi şərəfli yubiley gününüzdə ürəkdən təbrik edir ailə-övlad-nəvə sevincləri, daha yeni yaradıcılıq uğurları, Zemfira xanımla həmişə bir yerdə sevinclə dolu həyat ömür-gün arzulayıram.

Siz dünya miqyasında ədəbiyyatımızı təmsil eləyən ona nüfuz gətirən böyük qələm sahiblərindənsiniz.

İndi Yazıçılar Birliyində rəhbərlik etdiyim Ağsaqqallar Şurasında, əvvəllər isə "Ədəbiyyat qəzeti"ndə işlədiyim vaxtlarda Sizdən hörmət görmüşəm. Amiranəlik sizin rəhbərlik üslubunuza həmişə yad olub.

Siz unudulmaz, böyük xalq şairləri Rəsul Rzanın və Nigar xanım Rəfibəylinin ailəsində yüksək tərbiyə almısınız.

Mənim həyatımda, taleyimdə o insanların əvəzsiz xeyirxahlığı unudulmazdır.

Sizin toyunuzda iştirakımsa indiki kimi yadımdadı.

Sizə hörmətlə

Yazıçılar Birliyi Ağsaqqallar Şurası adından

***Nəriman HƏSƏNZADƏ***

*Xalq şairi*

Ədəbiyyat qəzeti.- 2023- cü il.- 18 mart.- S. 2.